# Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası Vətən müharibəsində də Azərbaycana mənəvi-siyasi dəstək verib

***Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası fəaliyyəti dövründə üzv ölkələr arasında əməkdaşlığın möhkəmləndirilməsinə mühüm töhfələr vermiş və dünyanın nüfuzlu təşkilatları arasında öncül yerlərdən birində dayanmışdır.***

***Hazırda türkdilli dövlətlər arasında əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biridir. Türkdilli dövlətləri birləşdirən ortaq soy-kök, tarix, mədəniyyət və milli dəyərlər ökələrimizin qarşılıqlı səmərəli fəaliyyətinin və əməkdaşlığının əsasını təşkil edir.***





Azərbaycan iki il ərzində Türk Şurasına uğurla sədrlik etmiş, bu dövrdə təşkilatın fəaliyyətinin gücləndirilməsinə, türkdilli ölkələr və xalqlar arasında dostluğun, qardaşlığın və əməkdaşlığın daha da möhkəmləndirilməsinə səy göstərmişdir.

Azərbaycan sədrliyi zamanı COVID-19 pandemiyasının yaratdığı çətinliklərə baxmayaraq, türkdilli dövlətlər arasında həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə dostluq və əməkdaşlıq əlaqələrinin daha da möhkəmləndirilməsi, habelə Türk Şurasının dünyada nüfuzunun daha da artırılması istiqamətində səylər göstərmişdir.

Onu da qeyd edim ki, 2020-ci il aprelin 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə COVID-19 pandemiyasına həsr olunmuş fövqəladə Zirvə görüşü keçirilmişdir. Bu görüş dövlət və hökumət başçıları səviyyəsində pandemiya ilə mübarizəyə həsr olunmuş ilk beynəlxalq tədbir kimi diqqət çəkmişdir.

Zirvə görüşündə dövlət başçıları tərəfindən COVID-19 pandemiyası ilə mübarizə çərçivəsində birgə tədbirlərə dair fikir mübadiləsi aparılmış, fövqəladə Zirvə görüşünün Bakı Bəyannaməsi qəbul olunmuşdur. Görüşün nəticəsi olaraq ölkələrimiz arasında pandemiya və sonrakı dövr ərzində əlaqələrin daha da inkişaf etdirilməsi ilə bağlı iqtisadiyyat, nəqliyyat, səhiyyə, energetika, gömrük, turizm və miqrasiya sahələrindən məsul nazirlərin görüşləri reallaşdırılmış, qarşıya qoyulan hədəflər müzakirə olunmuşdur. Eyni zamanda, sözügedən iclaslar zamanı qəbul edilmiş qərarların icrası ilə bağlı işlər aidiyyəti qurumlar arasında təsis olunmuş mexanizmlər çərçivəsində davam etdirilmişdir.

Yeri gəlmişkən, işğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulması layihələrinə Türk Şurasına üzv və müşahidəçi ölkələrdən olan şirkətlər, habelə iş adamları maraq göstərir, bu xüsusda 2021-ci il sentyabrın 10-da Bakı şəhərində “Azərbaycanın işğaldan azad edilmiş Qarabağ regionunun bərpasına və inkişafına həsr olunmuş” biznes-forum keçirilmişdir.

Azərbaycanın Türk Şurasına sədrliyi ölkəmiz üçün olduqca tarixi bir dövrə təsadüf etmiş, Azərbaycan 44 günlük Vətən müharibəsində qələbə qazanaraq öz ərazi bütövlüyünü bərpa etmişdir. Müharibə dövründə türkdilli dövlətlərin xalqları da Azərbaycan xalqına dəstəyini ardıcıl olaraq ifadə etmişlər. Birmənalı şəkildə demək olar ki, Azərbaycanın zəfəri türk dünyasında birliyin və həmrəyliyin daha da gücləndirilməsində mühüm rol oynamışdır.

Azərbaycanın beynəlxalq hüquqa və ədalətə əsaslanan mövqeyi Türk Şurası Katibliyi tərəfindən davamlı olaraq birmənalı dəstəklənmiş, 2020-ci ilin iyul ayında Ermənistanın Azərbaycanla dövlət sərhədi boyu Tovuz rayonu istiqamətində törətdiyi təxribat barədə, 44 günlük müharibə dövründə Azərbaycanı dəstəkləyən, Ermənistan tərəfindən Gəncə və Bərdə şəhərlərinin raket atəşinə tutulmasını qınayan bəyanatlar verilmişdir.

Türk Şurası heyəti 2020-ci il oktyabrın 20-də Ermənistan tərəfindən raket atəşinə məruz qalmış Gəncə şəhərini ziyarət etmişdir. Eyni zamanda, 2021-ci ilin yanvar ayında Türk Şurası, TÜRKSOY və Türk Mədəniyyəti və İrsi Fondunun nümayəndələri işğaldan azad edilmiş Ağdam və Füzuli rayonlarını ziyarət etmiş, düşmən tərəfindən işğal edilmiş ərazilərimizdə onilliklər ərzində törədilmiş vəhşi əməllərin nəticələri ilə əyani şəkildə tanış olmuşlar.

Türk Şurası Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşanın 2023-cü ildə Türk dünyasının mədəniyyət paytaxtı elan edilməsi təşəbbüsünü irəli sürmüşdür.

***Məhərrəm SƏFƏRLİ,***
***Beynəlxalq Jurnalistlər Federasiyasının üzvü***

Xalq qəzeti.- 2021.- 14 noyabr.- S.3.